Bismilləhir-Rəhmanir-Rəhim!

‘’Rafizilik’’ təhlükəsi.

Əziz müsəlmanlar və həmvətənlərimiz.

Vətənimizin, hal-hazırdakı işğal olunmuş ərazi probləmləri ilə üz-üzə gəldiyi bir halda və dirçəliş dövrünə xas olan bir nəçə daxili çətinliklər ilə qarşılaşdığımız bir dövrdə, digər tərəfdən də müsəlmançılıq ən-ənələrimizə zidd olan müxtəlif cür qeyri-islami din və cərəyanların təbliğatı qarşısında aciz qaldığımızda, bu səbəblə də xalqımız arasında etiqadi parçalanma təhlükəsinə məruz qala biləcək bir vaxtda, bizim, yaxın gələcəkdə, yəni bir təhlükə qarşısında durma ehtimalı get-gedə göz önündə cizgilənməkdədir.

Bu təhlükə, xalqımızın müqəddəs İslam dininin ətrafında birləşməyi arzu etdiyi bir halda, xalq arasında yəni bir ixtilaf törədə biləcək şeytani görüşlərin gizlincə, məxfi bir tərzdə, yaxud iki mənalı söhbətlərlə xalqımızın və İslam düşmənlərinin tərəfindən yaymaq cəhtlərindən ibarətdir.

Fəqət bu təhlükədə ən ağır məsələ odur ki, bu fitnəni törədənlər öz məqsədləri üçün bizim xalqımızın yaraşığı və mənəviyyatı olan İslam dinimizdən istifadə etməyə qərar veriblər, özlərinin bu çirkin əməllərində də müxtəlif cür yalan və uydurmalardan da istifadə etməkdən çəkinmirlər. Bir xalqın qardaşlarını bir-birinə dil uzatmağa sövq edirlər.

Bildiyiniz kimi, ölkəmizdə İslam dini, demək olar ki, Allah Təala tərəfindən yer üzünə göndərdiyi ilk zamanlarında bərqarar olub və o vaxtdan bəri ya açıq, ya da gizli xalqımızın qəlbində yaşamaqdadır və çox sevindirici haldır ki, bizim bu son illərdə həm xalqımızın, həm də onun seçdiyi dövlətimizin tutduqları müstəqillik, azadlıq, aşkarlıq istiqaməti sayəsində dinimiz yenidən özünün müqəddəs mövqeyini həm qəlblərdə, hə də həyatımızda tutmaqdadır. Bununla yanaşı da, indiyə qədər törənən müəyyən mənəvi və etiqadi boşluğu doldurmaq üçün müqəddəs olan İslam dinimiz özünün əvəzsiz zənginliyini təqdim etməkdədir.

Bildiyimiz kimi, tariximizin müxtəlif hadisələri nəticəsində Azərbaycanda həm ‘’şiə’’, həm də ‘’əhli-sünnə’’ təmayüllü insanlar mövcuddur və uzun müddətdir ki, bu cür qonşuluq bir qardaşlıq səviyyəsində sürüb gedir. Digər tərəfdən də bilməliyik ki, Azərbaycan xalqı ümumi şəkildə müsəlman olan xalqdır, Azərbaycanın ərazisi də müsəlman torpağı, yəni İslam diyarıdır. İslam diyarına qarşı və islam xalqına qarşı heç vaxt əsil müsəlman nə təcavüz gözü ilə baxmaz, nə öz planları xeyri naminə qarşı durma törətməyə cəhd göstərməz, nə də ki, belə çirkin işlərdə Müqəddəs İslam dininin qaydalarından, prinsiplərindən və tarixindən bu cür

hiyləgərliklə istifadə etməz.

Lakin ara-sıra, müxtəlif məqsədlər daşıyaraq, ölkəmizin bəzi qonşu nümayəndələri və onların buradakı yerli köməkçiləri bu cür əldə olunmuş qardaşlığı qarışdırmaq ehtimalını meydana atırlar. Əlbəttə belə olduqda biz də müəyyən dərəcədə zənn də edə bilərik ki, onlar bu işdə həm siyasi, ola bilsin ki, həm iqtisadi və həm də, hardasa, ərazi iddiası güdə bilərlər. Bir xalqın qardaşlarını baş-başa gətirmək heç bir qonşuya yaraşmaz, bu məqsədlə də dini mövqeləri istifadə etmək çox çirkin bir əməldir və bu nə Peyğəmbərimizin (ona və ailəsinə Allahın xeyir-duası olsun) göstərdiyi yol deyil, nədə ki, onun yolu ilə gedən, onun əhli-beytinin və digər əshabi-kiramının yolu deyil.

Tarix səhifələrinə baxsaq görərik ki, bizim xalqımız qədim ən-ənəsi olan uca İslam dinimiz həmişə düşmənlərin hədəfinə çevrilirdi və bizə qarşı düşmənçilik etmək istəyənlər hər dəfə dinimizə zərbə vurmaqla artıq, elan ədilməmiş müharibəsinə başlayaraq, bu təcavüzün soyuq mərhələsini gizlincə xalq içərisində başlayırdı. Bir xalqı sarsıtmaq üçün kifayətdir ki, o xalqın din mövqeyinə, din görüşünə, dini bütövlüyünə nifaq salsın, dedi-qodu salsın, birinin digərindən üstün olma görüşləri barədə fikir və ideyalar yaydırılsın. Bu cür fikirlər yeridildikdən sonra xalqın avam (islam lüğətinə görə ‘’dini biliyə malik olamayan’’) təbəqəsinin arasında çaxnaşma baş verir.

Onsuz da son vaxtlar Azərbaycanda dinimizə, müsəlmançılığımıza zidd olan qeyri-islami dinlər və cərəyanlar (məsələn: krişnalıq, buddizimlik, xaçpərəstlik, odpərəstlik, müxtəlif növ bütpərəstlik və s.) təbliğ edilərək, yayılması başlıca məqsədlərindədirlər. Və hər cür təxribatçi missionərlər din anlayışından istifadə edərək gələcəkdə öz çirkin planlarını həyata kəçirmək üçün daxilddən zərbə vuran dəstələr təşkil etməyə nail olurlar. Bununla da özləri üçün gələcəyə doğru ya dövlət çevrilişi üçün, ya işğal üçün və ya ümumi ixtişaşlar törətmək üçün zəmin yaradırlar. Onlar özlərinin bu cür mənfur planlarının şeytanın köməkliyi ilə edirlərsə, biz də buna qarşı yalnız Uca və Qüdrətli Allahdan kömək almaqla onları dəff edə bilərik, çünki Allah pozğunçuluğu və fitnə-fəsadı sevməz, digər tərəfdən də haqqı bərpa edənlərə öz yardımını göstərir. Bu səbəblə biz hamılıqla İlahidən gələn Müqəddəs İslam dinimiz ətrafında birləşib bu haqq olan ilahi dinimizin zənginliyini, müdrikliyini və mənəvi qüvvəsini bütün bunlara qarşı sipər etməliyik.

Lakin bütün bunlarla yanaşı bizi bir təhlükə, yəni bir parçalanma fitnəsi gözləyir. Aşkar etmək istədiyimiz təhlükə, yenə də bizim xalqın sərvəti, zənginliyi olan İslam dinimizi parçalayaraq məhv etmək, bizi dünya xalqları gözündən salmaq məqsədi ilə çirkin və ağla sığmaz fikirlərin düşmənlər tərəfindən xalqımız arasında yaymaq cəhtlərindən ibarətdir. Üstəlik də, bizim xalqın gözəl əxlaq

prinsiplərinə və yüksək mənəviyyatımıza mənfi təsir göstərmək, bununla da bütün cəmiyyətimizin və dövlətimizin sağlamlığına zərbə vurmaq, və ola bilsin ki, bizim istər dəniz, istər quruda olan ərazilərizə, yəni istiqamətdən göz dikmək məqsədlərindədirlər. Və din adı ilə, müqəddəs İslam dininə hörmət və həvəs göstərən vətəndaşlarımızı öz sıralarına çəkib, onları gələcəkdə, bəlkə də yaxın gələcəkdə, bizi xalaqa və bizim dövlətə qarşı hazırladıqları ''qonşuluq'' planlarında bu zavallı və həqiqətin nə olduğundan şübhələnməyən günahsız qardaşlarımızdan, hələ bizə qarşıda istifadə etmək arzusundadırlar. Əlbəttə ki, xalqımızın bəzi nümayəndələrini bu cür məsələləri bildikdən sonra da müxtəlif səbəblərə görə öz xoşluqları ilə bu çirkin oyunlarda iştirak etməyə hazırdırlar. Lakin biz ilk növbədə, özləri də bilmədən, azdırılmış vətəndaşlarımızın qayğısına qalıb, onları şeytanların əllərindən xilas etməyə çalışmalıyıq – bu həm Allah qarşısında yaxşı və savablı iş olar, həm də xalqımızı uçuruma sürüklənməsindən qurtara bilər. Onların əsasən güvəndikləri hal, xalqımızın, ümumən, dinimizə çox böyük hörmət bəsləməsi, son zamanlarda isə İslama olan həvəs və rəğbətin daha da artması, lakin bununla yanaşı isə onların sərbəst araştırmaq üçün tələb olunan dini biliklərin yüksək, yaxud kifayət edəcək səviyyədə olmamasıdır. Digər tərəfdən isə, bəlkə də onlar nə bizim xalqı müsəlman kimi saymır, nədə ki bizim torpaqları müsəlman torpağı kimi saymırlar. Digər tərəfdən də, bəlkə bizim xalqı bu qoca dünyada tək sanıblar, qardaşsız hesab ediblər və İlahidən himayəsiz zənn ediblər? Azərbaycanın bəzi əraziləri etrafında və üzərlərində baş verən son hadisələr bu cür qənaətlərə gəlməyə ehtimal yaradır, əks halda müsəlman müsəlmana nə etiqadi cəhətdən, nə iqtisadi cəhətdən, nə də ki, bir parça ərazi cəhətdən təcavüz etmək istəməz, hədə-qorxu nümayişindən istifadə etməz. Fəqət əgər işlətmiş olsa, onda bu yalnız fasiqlərin yaxud münafiqlərin hərəkətləri və niyyətləridir.

Digər tərəfdən də, bunların abu-havası ''xəvariclərin'' üsyanlarına bənzəyir. Demək olar ki, ''xəvariclər'' bütün dövrlərdə, ta Adəm (ə) zamanından müxtəlif dərəcədə fəaliyyət göstəriblər. Onların fəaliyyəti, Peyğəmbərlərə (ə), hökmdarlara və din dayaqlarına qarşı üsyan edib, fitnə-fəsadlar törətməkdən ibaritdir. Göründüyü kimi, günümüzdə də onlar öz fəaliyyətlərinə davam edirlər. İslam tarixində onların açıq olaraq ilk zühuru Hz. Osmanın dövründə, tam yetişərək böyük fitnə-fəsadlar törətmək ləri Hz. Əlinin dövründə baş verir. Üsyan eləyib Hz. Osmanı öz evində qətlə yetirirlər. Hz. Əli xəlifə olduqda onlarla artıq dövlət səviyyəsində mübarizə aparır, nəticədə onları xeyli yatızdırır, qalanları da yan-yörəyə dağılır. Lakin bir neçə nəfər suiqəstlər hazırlayıb Hz. Əlinin ölümünə səbəb olurlar və o vaxtın Şamm valisi olan Hz. Müaviyyəni də yaralayirlar.

''Xəvariclər'' – lüğəti mənasına görə : ''üsyankar'', ''həddini aşmış'', ''cızığından xaricə çıxmış'' deməkdir. Onların fikri – xəlifələrə qarşı üsyanlar etməyinin, hətta öldürülməsinin mümkün olması, necə ki

indiki dövrdə ‘’inqlab’’ adından istifadə edilir; Peyğəmbərimizin (s.a.v) Pak Sünnəsini (peyğəmbərlik təlimini) artıq qəbul etməyib: ‘’ancaq Quran, ancaq Quran’’ deyirlər.

Beləliklə də, xəlifələrə qarşı üsyankarlıq etdiklərinə görə, ümumi İslam prinsiplərinə qarşı çıxdıqlarına görə və bütün müsəlmanların əsas yolundan kənara çıxdıqlarına görə onlara ‘’xaricilər’’ daha sonra da ‘’xəvariclər’’ deyildi. Bunlar daima müxalifət edən dəstələr olublar. İzləsək görərik ki, yer üzündə olan bütün müxalifət qurumları öz təlimində ‘’xəvariclərə’’ bənzəyirlər. Allah bizi onların şərrindən qorusun.

İslam dini - nə üsyan, nə inqlab, nə təxribat nə də ki, terrorçuluq dinidir. İslam öz müdrik qaydalarını mədəni və sivil surətdə təqdim etməyi öyrədir, azad iradə, sağlam ağıl və elmi səviyyədə öyrənməyi tövsiyə edir.

Söz açdığımız ‘’rafizilər’’ də, bir çox nöqtələrdə ‘’xəvariclərə’’ yaxındırlar. Rafizilər də öz planlarını, xalqımızı bir tərəfdən dövlətdən narazı salmaq ilə, digər tərəfdən də ‘’əhli-sünnə’’ müsəlmanlarından narazı salmaq ilə həyata keçirməyə cəhd göstərirlər. Buna da dini bir don geyindirərək, tez-tez həm ‘’haqq yolundan’’ dəm vururlar, həm də ‘’inqlab’’ anlayışını öz tələlərinə düşən insanlara yürüdürlər. Tarix də göstərib ki, rafizi düşüncədə olanlar, nəinki vaxt aşırı müsəlmanlara qarşı çıxıblar, hətta müsəlmanların düşmənləri ilə dostluq ediblər.

Xalq arasında dini (şəriət) biliyin az olmasından istifadə edərək, rafizilər özlərini mütləq haqq yol üzrə olduqlarını iddia edən, lakin əslində İblisin əsgərləri olan bəzi şeytani insanlar müxtəlif cür küfrü, yalanı həqiqət donuna geyindirməyə və dinlə maraqlanan həmvətənlərimizə təbliğ etməyə çalışırlar. Ən çox da onların bu çirkin hiylələrinin qurbanı, ürəkləri din üçün açılan cavanlarımız və ağsaqqallarımız olur. Onsuz da dünyanın müxtəlif qeyri-müsəlman dinlərin nümayəndələri öz dağıdıcı fəaliyyətini apararaq, bizim müsəlman xalqımızı, azərbaycanlılarımızı müxtəlif dinlərin ayrılığına salırlar. Bu da bir dərddir. Lakin bir dinə mənsub olanları parçalamaq dəhşətli bir əməldir, çünki bu, illərlə qurulan dinin bir anda dağılmasına səbəb ola bilər.

Həmin bu fitnəçilərin (Allah bizi onların fitnəsindən qorusun!) iki böyük məqsədi güdmək ləri ehtimalı var. Birincisi, aydın görünən məqsəddir ki, əsrlər boyu yan-yana yaşayan və Nadir şah dövründən bəri bir-birinə qarşı heç-bir rəqiblik etməyən əhli sünnət və şiə təmayüllü vətəndaşlarımızı baş-başa gətirməkdir. Onların hiyləsi odur ki, xalqımızın arasında sünni-şiə söhbətini edərək, bu söhbəti şişirdərək, bir düşmənçilik səviyyəsinə düşürtməklə və bir xalqın və bir dinin iki qardaşını mütləq bir-birilə baş-başa gətirib, qardaş qırğınına gətirməkdir.

Digər tərəfdən də, bu cür ara qızışdırmaqla, fitnə-fəsad çıxartmaqla və qardaş qırğınına sövq etməklə, ikinci böyük məqsədləri olan, ümumən İslam dininə zərbə vurmaq və ola bilsin ki, Vətənimizi ərazi cəhətdən parçalamaqdır. Başqa bir güdülən məqsəd barədə belə ehtimal etmək olar ki, ölkəmizi və bizim qəlblərimizdə yerləşən İslam dinimizi, Allah və onun Peyğəmbərinə (s.a.v) olan imanımızı özlərinin çirkin planlarında istifadə etməyə çalışırlar.

Bu fitnə-fəsadları törədənlər öz məqsədlərini həyata keçirtmək üçün, seçdikləri yol və üsul odur ki, onlar özlərini şiə görüşlərinə mənsub olduqlarını uydurarak iddia edərək, şiə təmayüllü insanlar arasında əhli sünnət müsəlmanlarına qarşı müxtəlif cür yalanlar, üstəlik də dindən (din anlayışından) uzaq olan insanlar arasında da cürbəcür ağlasığmaz uydurma və yalanlar danışırlar ki, həmin insanları dindən uzaqlaşdırsınlar (əlbətdə ki, azacıq da ağlı olan və elmi biliyi olan bir kəs bu cür cəfəngiyyata, xürafata və mövhumatçılığa qətiyyən inanmaz). Rafizilərin batil görüşlərini tanımaq lazımdır ki, özümüzü və ümumən xalqımızı bu bəladan qoruyaq. Onları tanımaq lazımdır.

Onları tanıtdıran əsas fikirləri və sifətləri:

1. Əvvəla onlar özlərini yalandan şiə adlandırırlar və arabir imam Cəfəri Sadiqin adından istifadə edirərək, özlərini cəfəri məzhəbinin nümayəndələri kimi qələmə verirlər, lakin bir çox məsələdə imam Cəfəri Sadiqdən fərqli olan yolu tutublar. İslam tarixinin ilk dövrlərinin ən parlaq nümunələri olan və tarix səhifələrində öz əmelləri ilə yüksək şöhrət qazanan Rəşidi xəlifələrimizi – Əbu Bəkr əs-Siddiq, Ömər əl-Farruk və Osman Zunnureyn– düşməncəsinə tənqid edib, onların xəlifəliyini dinsizcəsinə inkar edirlər. Üstəlik də yalandan imam Cəfəri Sadiqin də bu cür batil fikirdə olmasını iddia edirlər, bununlada imama iftira yaxırlar. Bu da elimsizliyin əlamətidir. Halbuki imam Cəfəri Sadiqin atası imam Baqir, anası isə Əbu Bəkrin nəvəsidir. Beləliklə də, imam Cəfəri Sadiq həm Əlinin, həm də Əbu Bəkrin nəvəsidir. Bəs imam Cəfər özü o dahi şəxslər barəsində nə düşünüb? “Cəfəri Sadiqdən rəvayət olunur ki, bir qadın gəlib ondan: “Mən Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edib, onları sevə bilərəmmi?” – deyə soruşduqda, o demişdir: “Bəli, qəbul edə bilərsən”. Qadın: “Mən Rəbbimin hüzurunda olduğum zaman “Bunu sən mənə əmr etdin” – deyə Ona xəbər verə bilərəmmi?!” – soruşduqda, Cəfər ona: “Bəli” – deyə cavab verdi” ər-Ravzə min əl-Kafi, 8:101,238.
Məclisi, Cəfəri Sadiqdən istinadla, o da babalarından, onlar da Əlidən rəvayət etmişdir: “Peyğəmbərimiz (s.a.v)səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbər sallallahu aleyhi və səlləmdən sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər sallallahu aleyhi və səlləm də belə vəsiyyət etmişdir” Biharul-ənvar, 22:305,306.
Hətta, ət-Təbrisi imam Baqirdən rəvayət edir ki, o demişdir: “Mən

Əbu Bəkr və Ömərin fəzilətli səhabə olduqlarını inkar etmirəm, lakin, Əbu Bəkr Ömərdən əfzəldir (daha fəzilətli)” əl-İhticac, səh. 230.
Əbu Cəfərdən bir nəfər qılıncının bəzədilməsi haqqında soruşduqda, o demişdir: “Olar, Əbu Bəkr əs-Siddiq öz qılıncını gümüşlə bəzəyirdi”. Soruşan şəxs ona: “Sən də ona Siddiq deyirsən?” – dedikdə, İmam dərhal yerindən qalxıb demişdir: “Bəli, Siddiq deyirəm, bəli, Siddiq deyirəm. Kim ona Siddiq deməsə, Allah onun sözünü bu dünyada və axirətdə təsdiqləməz” Ərbili “Kəşful-qummə fi mərifətil-Əimmə”, 2:147.
Beləliklə də görürük ki, imam Cəfər Sadiqin özü də Peyğəmbərimizin (s.a.v)sünnətinin yolunu tutmuş, onun yolunun yolçusu olub.
Hətta XI əsrin səlcuq sultanlarının məşhur vəziri olan Əbu Əli Həsən Nizamülmülk tarixi-ədəbi abidəsi sayılan “Siyasətnamə” əsərində xəvvariclər və rafizilər barədə öz şahına xəbərdarlıqlar bildirdikdə, xəvariclər barədə bunları qeyd edir: “...Qulaqları səsdə, gözləri yoldadır. Allah eləməsin, əgər bu qüdrətli dövlətə (xilafətə) bir bədbəxtlik üz versə, ya bir zərər baş qaldırarsa, - Allah onun qarşısını alsın – bu köpəklər pusqularından çıxıb, bu dövlətə qarşı xüruc edər, tərəfdarlığa çağırarlar, bunlar rafizilərdən, xürrəmdinilərdən də güclü olarlar. Nə lazımdırsa: fisq-fəsad, hay-küy, ara qarışdırma, pozğunluq edərlər, heç şeydən çəkinməzlər. Sözdə müsəlmanlıq iddiasını edər, əməldə kafirlər kimi iş görərlər, onların batini zahirlərinin əksinə olar, sözləri əməllərinə ziddir. Məhəmməd Mustafa (s.a.v)dininə onlardan daha qəddar, daha murdar bir düşmən ola bilməz, ...
Bu gün heç bir qüvvətə malik olmayan, camaatı şiəliyə çağıran adamlar da bu dəstədəndirlər. Onlar gizlində bu dəstənin işlərini düzəldir, qüvvətlənmələrinə çalışır, təbliğat aparır, dünya hökmdarını, bəni abbasilər sülaləsini dağıtmağa təhrik edilər. ...”.
Həmin əsərdə müəllif, təhlükəli sayılan “məzdəki” və “xürrəmdinilər” təriqətləri barədə də söz edir.
Məzdək - məcusilərdən olub özünü yalandan peyğəmbər adlandırmış və xalqı özünə çəkmək üçün yalandan müxtəlif batil fikirlər irəli sürürdü. Hətta dövlət iddiasına düşərək hakimiyyəti ələ keçirməyə cəhd göstərmişdir, lakin sonunda cəzalandırılaraq öldürülmüşdur. Xürrəm – isə onun arvadı idi və o da bu batil dini davam etdirmək istəyirdi. Həmin bu əsərdə bildirilir ki, bu təriqətin üzvləri “haramı halal hesab edərlər, bədəni bütün əziyyətlərdən azad edərlər (ibadət və zəhmət); şəriəti danar, namaz, oruc, zəkat və həcci bir tərəfə atarlar, şərabı, camaatın malını və arvadını (bərabərlik üçün) halal sayarlar; bütün din borclarından uzaq qaçarlar. Xürrəmilər və batinilər (ismaililər) bir-birinə yaxındırlar.
Məqsədlərinə çatmaq üçün yalandan özlərini Peyğəmbər (s.a.v)övladlarını sevənlər kimi qələmə verirlər. Helə ki camaatı (ətraflarına toplayaraq) ələ keçirib qüvvətləndilər – hər şeyi qırağa qoyarlar”.
/ Nizamülmülk, “Siyasətnamə”, Az. Elm. Akad. Bakı – “ELM” – 1987./

2. Özlərini şiə kimi təqdim etdikdən sonra şiəliyi, islamın əsas hissəsi

olan ‘’əhli sünnət’’-in haqq məzhəblərinə qarşı çıxan bir təriqət kimi təqdim eləyirlər və guya, şiə olanların əsas işi, ancaq əhli sünnətə qarşı çıxmaqdan ibarətdir. Səhabələrdən başlayaraq bu günə qədər olan bütün ‘’əhli sünnət’’ nümayəndələrini (Peyğəmbər (s.a.v) təliminin /sünnətinin/ ardıcıllarını) tənqid eləyib, onları inkar edirlər. Peyğəmbərimizin (s.a.v) yolunda (sünnətində) olan və buna görə də ‘’əhli sünnət’’ əqidəsində olan müsəlmanların ünvanına müxtəlif cür böhtan və çirkin qeybətlər etməkdən çəkinmirlər.

3. Özlərini çox vaxtı ‘’haqq axtarıcıları’’ kimi qələmə verirlər və haqqı axtarmağa ‘’dəvət’’ edirlər, halbuki haqq İslamdadır, Qurandadır, Peyğəmbərimizin (s.a.v) pak sünnəsindədir (təlimindədir) və haqq olan bu həqiqət 14 əsr bundan əvvəl artıq nazil olub, əbədiyyən də dəyişməzdir.

4. Söhbətləri əsnasında Qurandan və Peyğəmbərdən (s.a.v) deyil, ən çox məhz Hz. Əlidən (r.a) danışırlar, bununla da özlərinin, guya, Hz. Əlinin (r.a) əsil tərəfdarları (şiəsi) kimi qələmə vermək istəyirlər, bununla da yanaşı, islamın digər dahi şəxsiyyətlərini, heç müsəlmana yaraşmayan tərzdə, mütləq tənqid edib, onlarda qüsur axtarmağa çalışırlar. Məgər Hz. Əli (r.a) Qurandan və Peyğəmbərdən (s.a.v) fərqli olan qeyri-adi müstəqil bir yolu tutub və tək olub, özünün ətrafındakıları özünə düşmən sayıb? Əlbəttə ki, bütün bunlar həm tarixi faktlara, həm də ümumiyyətlə adi məntiqə uyğun olmadıqda, həm səlim əqlə, həm də nəqlə (İslam dinində olan yazılı elmi məlumatlara) ziddir. Bu cür ideyalar heç bir vəchdə sağlam şüur səviyyəsində olan heç bir ağla batan deyil. Halbuki, Hz. Əlinin (r.a) özü Qurani Kərimin, Peyğəmbərimizin (s.a.v) və onun vəfatından sonra da onun pak sünnəsinin (təliminin) tərəfdarı və biz-zat icraçısı olub, və yüksək dərəcəli zühd əhli olub, bu yolda olanları da özünə qardaş bilib, onlara sirdaş olub.

5. Söhbətləri, təbliğləri zamanı müxtəlif cür uydurlmuş hekayətlərlə və sehrin bir növü olan bəlağət sehrindən (şirin dilliyindən) istifadə etmək ilə öz uydurmalarını və müsəlmanlara qarşı dil uzatmağı, qulaq asanların beyninə yürüdərək, əsəbi tərzdə həyəcanlandırmağa çalışırlar və müsəlman olan müxtəlif şəxsiyyətlərin ünvanına iftiralar və böhtanlar yağdıraraq, onlara qarşı insanlarda nifrət oyandırmağa çalışırlar. Hətta çalışırlar ki, mütləq onlara qulaq asan söhbətdaşları, ya da tələbələri, o cür dahi şəxsiyyətləri, mütləq şəxsən özləri öz dilləri ilə tənqid edib onların ünvanına təhqirlər göndərsinlər, onlara qarşı heç olmasa, məsələn ‘’kafir’’ sözünü dillərinə gətirsinlər.

6. Baxmayaraq ki, daima Hz. Əlidən (r.a) söhbət etməyə çalışsalar və guya, onu sevərək onun yolunda olduqlarını desələr də, ara-sıra bu şəxsiyyətə zidd olan və onu təhqir edə biləcək mənasında olan müxtəlif uydurmalar dillərinə gətirə bilirlər. Misal olaraq bunu qəyd etmək olar ki, onların uydurduqlarına görə guya Hz. Əli (r.a) kimi müsəlman şəxsiyyətin həyat yoldaşı olan Hz. Fatimə-i-Zəhranı (r.a)

kimsə vurub və ya döyüb. Bu uydurmanın digər yalanı da odur ki, guya Hz. Fatiməni (r.a) İslamın ikinci xəlifəsi Hz. Ömər (r.a) vurub. Bu fikir İblisin ordusunun üzvlərinin uydurmasıdır. Bunu yayanlar isə onun şeytan əsgərləridir. Bu söz həm Hz. Əlini təhqir edir, üstəlik də Hz. Fatiməni. Digər tərəfdən isə Hz. Ömərə (r.a) qarşı sürülən böhtan, daha digər tərəfdən isə Hz. Fatiməni dil ilə incitməkdir, guya onun əri dura-dura onu özgə bir kişi döyüb, bununla da ona özgəsinin əli toxunub və sairə böhtanlar və iftiralar. Bunu söyləyənlər Allaha deyil, onlar məhz İblisə ibadət etmiş olarlar. Allah Təala daima birliyə dəvət edir, şeytanlar isə parçalanmağa, fitnə-fəsada, pozğunluğa dəvət edirlər. Bu cür şeytani insanlar nəinki bizi, hətta Peyğəmbərimizin (s.a.v) səhabələrinə dil uzadaraq, ləkələməyə can atırlar, qiyabən onların sırasına nifaq salmağa çalışırlar. Beləliklə də, bütün İslam dinini və üstəlik də müasir dövrdə yaşayan müsəlmanları parçalayıb, aralarına fitnə-fəsad yayaraq bu cür batil görüşlərlə araya düşmənçilik salmağa cəhd göstərirlər. Əlbəttə ki, bu cür görüşləri yayanlar, ancaq İslamın düşməni ola bilər. Allah Təala bu cür yalanlar uyduranların cəzasını versin! Peyğəmbərimizin (s.a.v) səhabəsinə dil uzadan ələ Peyğəmbərin (s.a.v) özünə dil uzatmış olur, çünki onlar nə bizim, nə sizin, nə də başqasının deyil, məhz şəxsən Hz. Məhəmmədin (s.a.v) əshabəsidir, Allah Təala tərəfindən seçilmiş silahdaşları, köməkçiləri, dostları və qohum olmaq şərəfinə yüksəldilərək İslam tarixinin ən çətin anlarında özlərini fəda eləyən ilk müsəlmanlarıdırlar.

7. Söhbətləri zamanı, əksər vaxtda. Quranda, Peyğəmbərimizin (s.a.v) hədislərindən (sünnətindən) və İslam alimlərindən deyil, fəqət insanın öz şüurundan, öz məntiqindən və əqlindən istifadə etməyə dəvət etməyə çalışırlar ki, bu tərzdə olaraq əsilsiz və sübutsuz gedən söhbətdə qabaqcadan hazırlanmış ssenari üzrə qurulan söhbətdə öz söhbətdaşlarını azdıraraq, onları məntiqi böhrana, məntiqi dalana salaraq, tələsik və dərin düşünmədən fikir söyləmələrini tələb edirlər. Üstəlik də özlərinin haqq olduqlarını öz söhbətdaşları tərəfindən Quran və Peyğəmbərimizin (s.a.v) təlimindən lazımi qədər xəbəri və elmi məlumatı olmayan insanlardan tələm-tələsik təsdiq etmələrini tələb eləyirlər. Halbuki, belə fikirlər söyləmək üçün müxtəlif biliklərə nail olmaq lazımdır. Peyğəmbərimiz Hz. Məhəmməd (s.a.v) buyurmuşdur: ‘’Tələsmək şeytandandır.’’.

8. İslam dininin vacib saydığı müxtəlif ibadətləri öz ağılları ilə istədikləri kimi özbaşına ya ləğv edirlər, ya onu önəmsiz sayarlar, yaxud da onu özlərinə sərf edən başqa işlər ilə əvəz edirlər və bütün bunları təbliğ edirlər.

Məsələn, ‘’cümə’’ namazını qılmazlar və bundan digərlərini çəkindirirlər, bunun üçün da müxtəlif bəhanələr gətirirlər; ‘’bayram namazlarını’’ qılmazlar; gündəlik namazlarını camaatla qılmazlar, namazlarını dağınıq halda qılarlar, bununla da hərəsinin özünün

istədiyi qrupplar törənir; etiqad məsələlərində bütün dünya müsəlmanlarından fərqli olan fikirlərə sahibdirlər və fanatizm səviyyəsində digərlərini qəbul etmirlər; islam dininin elmi əsası olan ‘’Allah qədərini’’ (İlahi təqdirini) inkar edirlər, bununla da Allahın yaradıcı xüsusiyyətini inkar etmiş olurlar (Peyğəmbərimiz (s.a.v) də buyurub ki, ‘’ümmətimdən qədəri inkar edənlər – məcusilərdir/ yəni, odpərəstlər/’’, məcusilər iki ilah, iki yaradıcı anlayışını qəbul edirlər – xeyir ilahı və şərr ilahı, bunlar da bu məsələdə onlara bənzəyir). Müqəddəs Kəbə məscidinə yönələn ‘’Həcc’’ ziyarətini önəmsiz sayaraq və müsəlmanları ondan çəkindirmək üçün həccin yerinə digər yerlərə ziyarət etməyə çağırırlar, məsələn: öz ərazilərində yerləşən ‘’Məşhəd’’, və Allaha qarşı yalan söyləyerək deyirlər ki, guya iki dəfə məşhədə getmək bir həcc ziyarətini əvəz edir və belə insan artıq ‘’hacı’’ olur. Əlbəttə ki, hər bir müsəlman bu yerlərə böyük hörmət və kədərli tarix örnəyi kimi daima yadında saxlayır. Lakin biz bilirik ki, yer üzünün ən Müqəddəs yeri - Məkkədir və ondan savablı məkan yer üzündə yoxdur, dünya məscidlərindən ən müqəddəs olan Kəbə məscididir, orada İbrahim (ə) məqamı var, Allahın möcüzəsi olaraq qaynayan ‘’Zəm-zəm’’ bulağı var. Digər tərəfdən həcc mərasimi zamanı zəvvarlar Mədinə şəhərinə də gəlib orada Peyğəmbərimiz Hz. Məhəmmədi (s.a.v) ziyarət edirlər – məgər Ondan üstün bir şəxs varmı, üstəlik də oradakı ‘’Baqi’’ qəbirstanlığında yatan Hz. Fatimə, Həmzə, İslamın ilk xəlifələri, Peyğəmbərimizin nəslindən olan Hz. Zəynalabdin, Məhəmməd Baqir, Cəfəri Sadiq və ümmətin digər dahi şəxsiyyətləri. Bütün ümmətdən özlərini seçdirmək üçün ibadətlərə müxtəlif dəyişiklər salırlar – məsələn: namazın vaxtlarını, qılınışına dair; orucun açılma vaxtında (onu bilərəkdən gəçikdirirlər); əlimizdəki olan Müqəddəs Quranı haqq kitabı kimi qəbul etmirlər, yalandan deyirlər ki, Quran dəyişdirilib və nə vaxtsa əsl kitab gələcək, bu isə öz nəticə etibarı ilə əsl küfrdür və Allahı, Peyğəmbərimizi (s.a.v) xəlifələri, əhli bəyti, imamlarımızı inkar etməkdir, onları yalan saymaqdır; Allahın qədərini açıq inkar edirlər, bu səbəblə də eyni zamanda ‘’qədərilər’’ (yəni qədəri inkar edən) məzhəbindən sayılırlar; Peyğəmbərimizin (s.a.v) hədislərini qəbul etmirlər; İslam ümmətinin dörd haqq məzhəbini inkar edirlər və s. batil fikirlər və mövqələr.

‘’Peyğəmbər (s.a.v) buyurmuşdur: ‘’Hər ümmətin məcusiləri vardır. Mənim də ümmərimin məcusiləri – qədəri inkar edənlərdir’’. Müşəttəb dədi: ‘’Abdullah bin Abbas və Abdullah bin Ömər belə rəvayət edirlər ki, Peyğəmbər (s.a.v) demişdir: ‘’Qədərilərin və rafizilərin islamda payları yoxdur’’. /Nizamülmülk/.

Müşəttəb dədi: ‘’Ümmu Sələmə rəvayət edir: ‘’Bir gün Peyğəmbər (s.a.v) mənim yanımda idi, qızı Fatimə Əli (Allah onların hər ikisindən razı olsun) ilə onun yanına gəldilər. Bir şəy soruşmaq istəyirdilər ki, Peyğəmbər (s.a.v) başını qaldırıb dədi: ‘’Əy Əli, təbrik edirəm, sən və sənin əyalın behişdə gedəcəksiniz. Lakin səndən sonra rafizi adlanan bir tayfa əmələ gələcəkdir, onlar kafirdirlər’’, və daha sonra

Əlini onlarla mübarizəyə çağırır. Hz. Əli soruşur: ‘’Ya Rasulullah, onların əlaməti nəcə olar?’’, Peyğəmbər (s.a.v) dədi: ‘’Cümə namazına gəlməz, camaat namazına durmaz, əvvəlkilər haqqında pis danışarlar’’ /Nizmülmülk/.

Rafizilərin digər yanlış fikirləri:

1. Özlərini Hz. Əlinin (r.a) tərəfdarları kimi qələmə vərərək Hz. Əlidən başqa Peyğəmbərimizin (s.a.v) digər əshabəsinin, demək olar ki, əksəriyyətini qəbul etməyib, az qala onları kafir sayırlar (tarixdən bildiyimiz kimi, bu cür davranış ‘’xaricilərə’’ /xəvariclərə/ xas olan xüsusiyyətdir) və əlaxüsus Hz. Əbu Bəkr Siddiqlə (r.a), Hz. Ömər-əl-Farruk barədə lap küfrə düşüb xaricilik (xəvariclik) edib onların fəzilətlərini inkar edirlər. Halbuki Peyğəmbərimiz (s.ə.v) bu cür şəxsiyyətlərlə əl-ələ verib İslam dinini beşikdən yüksəlişinə qədər bərqarar ediblər.

‘’Əli (r.a) iki şəyx – Əbu Bəkr (r.a) və Ömər (r.a) haqqında demişdir: ‘’Müsəlmanların ən yaxşısı, Allaha və Onun elçisinə (s.a.v) ən yaxını – xəlifə Siddiq və xəlifə Faruq olmuşlar. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların örnək etdiyi adam şiddətli İslam hissinə tutular (yəni onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın’’. /Məysəm. ‘’Şərh Nəhcl-Bəlağə’’, 1: 31/.

Farslarla döyüşə hazırlaşarkən, əmirəl mömin Hz. Ömər özünün də döyüşdə iştirak etməsi barədə nizamlayıcının (ipin) əhəmiyyəti nə qədərdirsə, əmirin etibar edildiyi adamın (seçilmişin zəilifin) da əhəmiyyəti o qədərdir, və qoy əcəmlər (farslar, odpərəstlər, əcnəbilər) sənə baxıb deməsinlər ki, ‘’Ərəblərin kökü budur, onu kəssəniz, rahat olarsınız’’. /Nəhcl-Bəlağə, səh. 203, 204/.

Hz Ömər Rum döyüşünə çıxmaq istədikdə isə Hz. Əli ona onun özünün getməməyi barədə, öz yerinə inamlı birisini göndərməyi məsləhət ətdikdən sonra əlavə dir ki,: ‘’...Əgər Allah bu yolla səni qalib çıxarsa, istədiyin elə bu idi. Yox, başqa cür olsa, insanlara dayaq və müsəlmanların ümid yeri olarsan’’. /Nəhcl-Bəlağə, səh. 193. Tərcümədə səh. 167-168/.

Budur onların həqiqi münasibətləri, çünki onlar ilk növbədə İslam dininin müsəlman qardaşlarıdırlar. Əsil iman da budur.

Məgər Hz. Əli digər müsəlmanlara qarşı düşmənçilikmi bəsləyirdi ki, özünü onun tərəfdarı (şiəsi) sayan insan mütləq gərək Peyğəmbərin (s.a.v) səhabələrinə qarşı düşmənçilik etsin?

Bir kəsi sevmək, digər tərəfdən də həmin zatın oturub-durduğu insanlara düşmənçilik etmək çox əqilsiz və heç bir məntiqi çərçivələrə sığışmayan əsilsiz, uydurulmuş görüşləridir.

Müsəlmanları bu tərzdə bir-birindən ayırmaq, fərqləndirmək, birini digərindən üstün saymaq açıq-aydın göz görə-görə, nəinki müsəlmanları, ən dəhşətlisi odur ki, hətta ümumən İslam dinimizi parçalamağa gətirən şeytani əməl və təhlükədir. Allah bizi onların şərindən qorusun! Bu fikirlər həqiqi olan əsl müsəlmanın şüuruna xas olmayan görüşlərdir.

Məclisi, Cəfəri Sadiqdən istinadla, o da babalarında, onlar da Əlidən (r.a) rəvayət etmişdir: ‘’Peyğəmbərimiz (s.a.v) səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən (s.a.v) sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər (s.a.v) də belə vəsiyyət etmişdir’’. /’’Biharul-Ənvar’’. 22: 305, 306/.

2. Allah Təaladan vəhy yolu ilə gələn və dəyişməz bir tərzdə Peyğəmbərimizdən (s.a.v) bizə qədər çatdırılaraq əlimizdə olan pak Qurani-Kərimi inkar edib onda şəkk eləyirlər. Quranı inkar edən Allaha qarşı küfr etmiş olar. Bu kühr fikri yaymaqda məqsəd odur ki, iman ədə biləcək insanları ilahi xəbərlər olan Qurani Kərimdən uzaqlaşdırmağa və ona tabe olunmamasına zəmin yaratmaqdır, bununla da İslam elmini zəiflətməkdir, çünki Quran bütün İslam elminin ana təməli, qaynağıdır, ilahi bir qanun qaydadır. Lakin onlar camaatı diksindirib özlərindən qaçırtmamaq üçün bunu aşkar deyil, fəqət dolayısı yollarla, yaxud da tələlərinə düşən günahsız və həqiqəti hələ bilməyən tələbələrinə xüsusi dərslər ilə bu ideyanı (küfrü) gizlincə təbliğ edirlər. Bu cür yalanı və Allah Təalaya qarşı olan bu iftiranı müxtəlif bəhanələrlə həqiqət donuna geyindirmək üçün, eyni zamanda da kütlənin gözündən pərdə asmaqdan ötrü onlar bu cür ziddiyyətli olan müxtəlif fikirlər irəli sürürlər. Özü də öz aralarında müxtəlif fikir ayrılığına düşüblər. Onların bəzisi uydurub ki, guya bu Quran o Quran deyil, dəyişilib, bəziləri iftira edirlər ki, bir-neçə surə (məsələn, guya, ‘’iki ulduz’’, “vilayət” surələri) ya da hər hansı ayələr bu Qurandan əksilib, digərləri isə belə uydurma irəli sürürlər ki, guya bu Qurana nələrsə əlavə edilib, yaxud əsl Quran kiminsə yanında saxlanılaraq nə vaxt isə nazil ediləcək və bunun kimi saira iblis təməlli, murdar fikirlər. O qədər yalan və uydurmalar danışıblar ki, göründüyü kimi, özləri də öz aralarında və öz yanlarında dolaşıb çaş-baş qalıblar.

3. Peyğəmbərimizin (s.a.v) kəlamlarını və davranışlarını özündə kəsb ədən və bütün müsəlmanlar tərəfindən, məzhəblərindən asılı olamayaraq, qəbul edilmiş hədisləri (bu da öz növbəsində ‘’Peyğəmbərin sünnəsi’’ (yəni təlimi, yolu, bəyəndiyi şəylər) adlanır) inkar edib, qəbul etmirlər. Yalnız özlərinin qurduqları yalnış ideyalarına uyğunluğu cəhətdən yaxın ola bilən bəzi hədisləri düzgün izah etməyərək istifadə etməyə çalışırlar, üstəlik müxtəlif cür yalanlar uydurarak, bunları da hədis kimi qələmə verməkdən çəkinmirlər.

4. İslam dininin böyük şəxsiyyətləri barədə çirkin və əhəmiyyətsiz

fikirlər söyləyib, onların ünvanına layiq olmayan tərzdə ifadələr edirlər, hətta dahi müsəlmanlara belə ‘’kafir’’ adı ilə düşünmədən (ya da düşünmüş planla) adlandırırlar və çəkinmədən onlara lənət də oxuyurlar. Hallandırılan (qeybəti edilən) bu şəxsiyyətlərin sırasında Peyğəmbərimizin (s.a.v) ən yaxın səhabələri olaraq müxtəlif dərəcədə (qaynata, kürəkən, yeznə, əmioğlu və s.) olan ailə üzvləri; Onun (s.a.v) səhabələri, silahdaşları, möminlərin ilk xəlifələri; Allah yolunda bütün malını, var dövlətini və canlarını qoyan müsəlmanlar; çətin anlarda Peyğəmbərimizə (s.a.v) həm mənəvi, həm fiziki, həm də maddi cəhətdən dayaq olub, sirdaş olanlar, İslam dininə zəfər gətirən şəxslər; Quranı qoruyub yayan müsəlman qardaşlarımız, müxtəlif əsrlərin din alimlərimiz və imamlarımızı daxil edirlər. Bütün bunları ya təhqir edirlər, ya müsəlman saymırlar, ya səhv yolda olduqlarını iddia edirlər və sairə. Bununla da İslam dinini tarixsiz, bünövrəsiz, elmsiz və inamsız qoymaq istəyirlər. Halbuki, dinimiz zəngin tarixə, gözəl nümunəli örnəklərə, dərin elm dəryasına və yüksək inam təməllərinə malikdir. Sadəcə olaraq, bütün bunların biliyinə oxuyub-öyrənməklə nail olmaq olar. Bu da ancaq möminlərə xas olan xüsusiyyətdir.

5. Peyğəmbərimizin (s.a.v) pak sünnəsini (təlimini, yolunu) əməl edilməsinə xor baxırlar, bunu önəmsiz bir iş sayırlar, ya da bəyənmirlər. Hz. Məhəmmədin (s.a.v) sünnəsi sayılan hərəkətlərdən və davranışlardan çəkilirlər. Hətta ‘’sünnə’’ və ya ‘’Peyğəmbərin sünnəsi’’ sözlərini ssşidəndə çox hirslənib, narazı olurlar. Peyğəmbərimiz (s.a.v) buyurub ki, ‘’Hirs şeytandandır’’. Digər tərəfdən də, şeytan heç bir Peyğəmbərin sünnətini sevməyib və bizim Peyğəmbərimizin (s.z.) də sünnəsini sevməyib, ondan qaçıb və Onun (s.a.v) yoluna nifrət edib.

Üstəlik də, bütün bunalarla yanaşı onlar Peyğəmbərimizin (s.a.v) yoluna (davranışına, görüşünə, həyat tərzinə, ədəbinə, şəriətinə) riayət etməyə çalışan müsəlman qardaşlarımıza dil uzadıb, onları lağa qoyurlar Pəyğəmbirimizin (s.a.v) əmr etdiyi müxtəlif hərəkət və sözləri rədd edirlər. Bunun üçün də deyirlər ki, ‘’bizim əqlimizə batmır’’, ‘’məntiqi deyil’’, ‘’ağla batan deyil’’ və bu kimi elmi-dini görüşlərdən uzaq olub İslam dinin təməlinə zidd olan sairə görüş və bəhanələr. Digər tərəfdən də əqldən əqlə də fərq var. Dinin incəliyini başa düşmək üçün elm və bilik lazımdır, hər kəs isə alim olmur. Yalnız onu ilk növbədə bilmək lazımdır ki, təkcə itaət olsa – artıq Allah Təala buna görə mükafatlandıracaq.

6. Özlərinin şeytani təbliğlərində onlar azmış bir-nəçə insan haqqında kitab və görüşlərindən istifadə edib, onları özləri üçün müctəhid, ya da alim sayırlar.

Məsələn:

- Qurani-Kərim barədə batil fikirləri ‘’Əl-Kafi’’ kitabından alırlar. Bu

kitabın müəllifi geniş İslam aləminə tanış olmayan Kuleyni adında olan bir müəmmalı ‘’alimdir’’.

- Açıq-aydın uydurulmuş hədislər də həmin kitabda mövcuddur.

- ‘’Torpağa səcdə’’ adlı bir kitabda, hətta haqq olan məshəblərə də dil uzadıb, onları hədər yerə tənqid etməyə cəhd göstərirlər.

Bizim ölkədə azdırılmış insanlar da /zavərbovanniə/ rafizilərin planları naminə onların xidmətlərində çalışırlar. İnsan hər hansı bir dinin ardınca gətsə də, fəqət hər hansı bir digər dövlətin işğalçı siyasəti ardınca heç vaxt getməməli, hətta o qonşu dövlət kimi görsənsə də. Lakin bizim bu çaşmış insanlar bu cür təfəkkürdən uzaqdırlar. Onlar hər bir fürsətdə rafizi ideyasını təbliğ etməyə çalışırlar, onların mövqəylərini müdafiə edirlər və hətta onların kitablarını da nəinki bizim əraziyə daxil/import/ edirlər, hətta bizim öz ərazimizdə onların təxribatçı ədəbiyyatlarını bizim dilə çevirib xalqımız arasında müxtəlif yollarla yayırlar.

Misal olaraq məzhəblər arasında ixtilaf salmaq məqsədi ilə hazırlanan kitablardan bunları göstərmək olar. Tərcümə edilib gətirilən kitablar arasında bunları qeyd etmək olar:

‘’Torpağa səcdə’’-Qum şəhəri, /Bu kitabda 4 haqq məzhəb tənqid edilir/, ‘’Necə hidayət oldum’’-Qum şəhəri /Bu kitabda Peyğəmbərimizin (s.a.v) qohum-əqrabası, yaxın sirdaşları və eyni zamanda İslamın ən məhşur, ən görkəmli şəxsiyyətləri və ilk haqq xəlifələr kafircəsinə tənqid edilir/ --- --- --- ... ...

Rus dilinə tərcümə edilib bizdə nəşr olunan kitablar:

‘’İmamat- verxovnaya vlast..’’- Bakı, ‘’İrşad’’ cəmiyyəti. /Bu kitabda, yenə də şəriət qaydaları kənara qoyularaq, boş məntiq çalışması ilə yenə də ilk xəlifələr inkar edilir və uydurulmuş ideyalar irəli sürülür, bununla da bütün müsəlmanların ziddinə çıxırlar/.

7. ‘’Əhli sünnət’’ (sünni tərəfinə mənsub olan müsəlmanları pisləyib, gözdən salmağa çalışırlar və üstəlik belə fikir də söyləyirlər ki, ‘’ata-babalarınızın şiə olub, siz də şiə olmalısınız’’. Halbuki, əvvəla müsəlman elə müsəlmandır, ayrılıq salmaq isə şeytandandır, digər təfdən də İslamda din azadlığı var, üstəlik də övlad atasının etiqadına görə cavabdehlik daşımır, və əsrlər boyu Azərbaycanın əksər yerlərində ‘’əhli sünnət’’ (Peyğəmbər (s.a.v) təliminin əhli) məshəbləri, əlaxüsus Hənəfi ilə Şafii məktəbləri ən çox yayğın olub. Hətta orta əsrlər tarixinə nəzər salsaq, görə bilərik ki, ata-babalarımızın əsli, şah İsmayılın müdaxiləsinə qədər, ya hənəfi, ya da şafii olublar. Lakin bu görüşləri bayraq kimi tutaraq, aranı qızışdırmaq yalnız İslam düşmənlərinə xasdır, çünki onlar bu cür fitnələrlə müsəlmanları və ilkin İslam şəriətini parçalayıb, zəiflətmək

istəyirlər.

8. Çox vaxtı ‘’haqq’’ sözündən tez-tez istifadə edib ‘’haqqı axtarmaq’’ təşəbbüsünü irəli sürməklə özlərinə cəlb etməyə çalışırlar. Halbuki, artıq 14 əsr bundan əvvəl nazil olaraq göndərilib. Nazil olan haqq – Qurani kərimdir, göndərilmiş haqq da – Peyğəmbərimiz Hz. Məhəmməd (s.a.v) və onun pak Sünnəsi (təlimi, yolu). Artıq haqq axtarmaq istəyən, ancaq Quran oxumalı (şükürlər olsun Allaha, onun tərcüməsi edilib), Peyğəmbərimizin (s.a.v) yolunu bizə göstərən hədisləri oxumalı və məhz bu iki əsas təməl üzərində qurulmuş elm imamlarımızın (alimlərimizin) görüşlərini öyrənməliyik. Əsl həqiqət budur və əsl haqq bundadır.

9. Qabaqcadan hazırlanmış ssenari üzrə, təhrif olunmuş və uydurmalar əlavə edilmiş müxtəlif cür hadisələr danışaraq, digər tərəfdən də psixoloji (şüur altı) təsiri olan müəyyən ağlaşma səhnələrini və (Peyğəmbərin (s.a.v) mərsiya dəyənlərə dair lənət etməsinə baxmayaraq) buna səbəb olan ‘’mərsiyyə’’ məclisi quraraq, orada iştirak ədən insanları psixoloji bir böhrana, psixiki bir gərginliyə salırlar (bu belə bir böhran, belə bir gərginlikdir ki, bu halda olan insan özünün tam şüur səviyyəsində lazımi ölçüdə idarə etmə qabiliyyətini itirərək, bir növ axına qoşulmuş bir ‘’zombi’’ halına düşür). Bu da öz növbəsində psixoloji gərginliyə gətirib çıxardır, nəticədə də psixoloji bir ‘’partlayış’’ baş verir ki, bu anda bu işlərə sövq edən missionərlər (şeytanlar) bir komandir roluna kəçərək, bunların toruna düşən günahsız və elmsiz insanları isə gözü qapalı əsgərlər vəziyyətinə salaraq, bu insanları özü-özlərinə zülm vərməyə, özlərinə qəsd etməyə, öz-özlərini vurmağa, döyməyə, yaxa cırıb, saç yolmağa və özlərinə müxtəlif dərəcədə xəsarət gətirməyə, digər tərəfdən də, İslam aləminin adlı-sanlı şəxsiyyətləri ünvanına lənətlər, təhqirlər, məsxərəyə qoymağa sövq edirlər və ümumiyyətlə özlərinin batil təriqətlərinə mənsub olmayan bütün haqq müsəlmanları təhqir etməyə sözq edirlər, daha doğrusu, belə bir vəziyyətdə artıq əmr edirlər. Nəticədə də, əsl İslam dininin əsas şərt və məqsədlərindən xəbərsiz insanlardan ibarət olan böyük bir dəstəni öz təsiri, öz əmri altına ala bilirlər. Bununla da onları daha da geniş hərəkatlarda iştirak etməyə hazırlaşdırırlar. Bunun üçün də, bir tərəfdən, hər hansı bir yalandan ‘’müctəhid’’ adlanan bir şarlatana kor-koranə təqlid (tabe) olmağı təbliğ eləyirlər, digər tərəfdən də əldə edilən nailiyyətləri əldən buraxmamaq üçün zəmin hazırlayaraq zaman-zaman bu cür şeytan tədbirləri, mərasimləri təkrarlayaraq öz nailiyyətlərini möhkəmləndirməyə çalışırlar. Üstəlik də, yuxarıda qəyd etdiyimiz bütün bu əməllər İslam dininə zidd olduğu halda, onlar bu əməllərə dini bir don geyindirib, bütün bunları ibadət və hətta çox savablı əməllər kimi qələmə verirlər. İslam şəriətində müqəddəs borc olaraq dini, vətəni, namusu, malı qorumaq üçün dövlət səviyyəsində aparılmağa nəzərdə tutulmuş ‘’cihad’’ (Allahın razılığını qazanmaq üçün aparılan müqəddəs müharibə) anlayışını təhrif ədərək, ürəkləri İslam ilə isinən insanları

yalandan cihad adı ilə dövlətə qarşı üsyan və ‘’inqlab’’ ideyalarını yürüdürlər. Bununla da, özlərinin din yolunda yox, məhz çirkin siyasət yolunda, müstəmləkəçilik arzusunda olduqlarını göstərirlər. Lakin özgə dövlətdə iştah açmaq bir günah, bu yolda isə din anlayışından istifadə etməyə çalışmaq daha böyük günah və çox çirkin bir əməldir.

Fəqət, İslam şəriəti (qanunu) ilə İslam tarixi (əlaxüsus, müxtəlif cərəyanlar tarixi) nöqteyi nəzərindən baxsaq, çox aydın bir şəkildə görə bilərik ki, bütün bu kimi əməllər öz quruluş və cərəyan ədən prosesləri etibarı ilə İslam şəriətini pozan, İslam prinsiplərinə (eyni zamanda da mənəviyyatına, əxlaqi və ümumi dəyərlərinə) zidd olan, ifrat dərəcəsinə çatmış sufiliyin həddi aşmış istiqamətlərindəndir. Digər tərəfdən də, bütün bunları nə Allah Təala, nə Onun Elçisi (s.a.v) əmr etməyiblər. Buna görə də bütün bunlar sonradan icad edilərək, dinə salınan yəniliklərdir (‘’bidət’’lərdir).

Lakin buna baxmayaraq, söz açdığımız bu ‘’təbliğatçılar’’ (daha doğrusu ‘’təxribatçılar’’) bütün bu əmələri biliksiz insanlara bir ibadət donu altında savablı əməl kimi qələmə verirlər və bununla da Allah Təalaya iftira ədərək (yəni, guya, bu ‘’Allaha xoş gedir’’) , Onun adından yalan danışırlar (yəni, guya ki, buna görə Allah Təala savab yazır). Lakin bu cür uydurma hərəkətlər heç bir halda ibadət deyil, üstəlik də Allah Təalaya qarşı üsyan və nankorluq, difər tərəfdən də Allah Rasulunun (s.a.v) təlimini pozmaqdır.

Allah Təala, şəxsən Özü bu cür əməllərin əksinə çıxaraq belə buyurub: ‘’özünüzə zülm etməyin.....’’?

Fəqət, kimi Allah yolunda (savab və əcir qazanmaq üçün) əziyyət çəkmək istəyirsə, qoy məsələn, icazə verilən tərzdə oruc tutaraq, mədəsini incitsin; yuxunu şirin vaxtında yuxudan, soyuq havalarda da isti yataqdan durub dəstamaz alaraq namaz qılsın; Qurani Kərimi və ona uyğun olan şəriət kitablarını oxuyaraq, həm gözünü, həm zehnini yorsun; zəkat və sədəqə verərək malı və sərvəti ilə ibadət etsin (xəsislikdən özünü tərbiyə etsin və malının bir hissəsini Allah yolunda xərcləsin); çətinlikdən və ağır şəraitə düşməkdən qorxmursa, müsəlman ərazilərini qorumaq üçün cihad edib, özünü Allah Təala yolunda fəda ədərək, ölüm təhlükəsi qarşısına atsın – bütün bunları da etmək üçün nəfsin aşırı istəklərini boğub, şeytana tabe olmayıb, onunla mübarizə aparmaq lazım gəlir. Bütün bu əziyyətli olan əməllər şəriətin (ilahi qanunun) icazə verdiyi din çərçivəsindəki olan əziyyətlərdir ki, bunları hər bir müsəlman yeri gəldikcə icra edib, bunların çətinliklərinə qatlanıb, səbr edib, dözüm göstərməlidirlər. Amma bunlardan artığını (yəni şəriətdə nəzərdə tutulmayanı) etmək – Allah Təalanın qoyduğu sərhədləri pozmaq, ifrata düşməkdir. Ümidvarıq ki, Allahı həqiqi sevgi ilə sevən şəxs Allah qorxusundan bu cür aşırı hərəkətlərə, inşaallah, yol verməz.

10. İnsanları, əlaxüsus cavanları, siğə adlandıraraq ‘’muta’’ nigahına sövq edərək və bununla şirniklərdirərək, öz aralarına cəlb etməyə çalışırlar. ‘’Muta nigahı’’ (müvəqqəti nigah) – islamiyyətdən əvvəlki cahiliyyə dövrünün xüsusiyyətlərindən biri olaraq, cahillik və pozğunçuluq mühitində həyat sürən müşriklərin arasında meydana çıxıb, yayılmışdır. Lakin İslam dinin bərqarar olmasıyla Peyğəmbərimizin (s.a.v) əmri ilə (hicrətin 8-ci ilində, ‘’Heybər’’ günündə) bu cür şərəfsizlik nümunəsi ləğv edilmişdir. ‘’Muta nigahı’’ – müvəqqəti nigah, yəni bir-neçə günlük və ya bir-nəçə saatlıq cinsi münasibət üçün keçirilən nigah aktı, qətiyyətlə ləğv edilmişdir və ancaq əməlli-başlı kəbinlə və eyni hüquqa malik olan dörd qadınla evlənmək icazəsi verildi. Fəqət yenə də, yalnız biri ilə evlənməyə mənəvi cəhətdən üstünlük verildi.

‘’muta nigahın’’ əsas xüsusiyyətlərindən ən mənfi olanlar:

a) kəbinsiz (zaqksız) cinsi yaxınlığa yol açır (nizamsız həyat tərzinə);
b) müvəqqəti olaraq, ya cinsi yaxınlığın sayı danışılır və ya müvəqqəti olaraq, bir vaxt təyin edilir (saat, gün, nadir hallarda həftə);
c) həmin vaxt müddətinin və ya yaxınlıq sayının qiyməti danışılır və ödənilir;
d) üstəlik, bu cür töredilən işə bir dini don gəyindirmək üçün bir-iki ‘’dua’’ da oxuyub, kəbin şərtlərinə bənzər şərtlər də uydurub, irəli sürülür;
e) uşaq probləmi – bu cür müvəqqəti əlaqədən doğulan uşağı ata soyundan məhrum edirlər, çünki hiss edirlər ki, sankı zinadan doğulmuş uşaq kimizdir. Bu cür doğulan uşağın günahı nədir? Əgər həqiqətən də ‘’muta’’ dini bir əməliyyat sayılırsa, onda niyə uşağı ata adından məhrum edirlər? Məgər uca İslam dini uşaqları tərk etməyi sövq edir? Bunların hər ikisi də yalan və İslam dininin adına iftira edib, ləkə atmaq cəhdidir. İslam şəriəti həm ‘’muta’’ yaxınlığını qadağan eləyir, həm də uşaqdan imtina edərək onu soydan məhrum etməyi. Görün indiyə qədər bu ‘’müsəlman’’ atalar neçə uşağın gözünü yolda qoyublar.

Digər problem isə İslamın öyrətdiyi namus və qeyrətin tapdalanması, digər tərəfdən də Quran hökümlərinin ciddi pozulmasıdır. Bunun da səbəbi odur ki, başqa-başqa analardan, lakin bir atadan doğulan oğlan və qız uşaqları, bir-birilərini tanımayaraq, böyüdükdən sonra evlənmiş, ya da həmin ‘’muta’’ yaxınlığına girmiş ehtimalı olduqda, eyni atadan olduqlarını bilmədikləri ucbatından, İslam dini ilə qəti qadağan (haram) olmuş bacı-qardaş (oğul-analıq) yaxınlığına düşüb, böyük günaha öz ataları tərəfindən sövq olunurlar. Yəni, atasını tanımayan oğlan və ya qız, əlbəttə ki, onun qohumlarını da tanımaz. Belə olacağı təqdirdə oğlan böyüyəndən sonra atadanbir bacısı ilə, ya bibisi ilə, yaxud atasının vaxtı ilə siğə etdiyi bir qadınla və sairə olan qan qohumları, yaxud evlilik bağlılığı nəticəsində meydana gələn qohumlarla, onlar

məhrəm olduqlarına baxmayaraq, haram edilmiş münasibətlərə yol açılmasına ehtimal doğurur – axı heç kim öz siğə partnyorlarının siyahısını tutub camaata elan etməyəcək ki!

Bu ‘’muta’’ problemi hal-hazırda İran dövlətində öz əksini tapıb, onların missionərləri də bunu və digər əmələlri, artıq bəlli olan məqsədlər üçün bizə keçirtməyə çalışırlar. Məsələn, orada Muta səbəbi ilə meydana gələn uşaqların sayı stastik məlumatlara görə hal-hazırda o qədərdir ki, hətta İran jurnalı olan ‘’Əş – Şira’’ (684, səh.4) – də deyilir ki: ‘’Rəfsancani qeyd etdi ki, bu gün İranda müvəqqəti nigah səbəbi ilə bir milyonun dörtdə bir hissəsi qədər atılmış uşaq mövcuddur!’’. Görün indi ümumi sayı nə qədərdir!, aralarında da nəçə-nəçə bacı-qardaş və digər qohumluq əlaqələri olanlar var. İslamın mənəvi nigahına ‘’siğə’’ adını vərməyə çalışırlar, amma bu adın onunla heç bir əlaqəsi yoxdur, çünki ‘’siğə’’ (tərcümədə-akt) – əmælli-başlı kəbinin (zakqsın) ayrılmaz hissəsi olan aktlaşma (təsdiqləşmə) mərasiminin ismidir.

Əlbəttə ki, İslam dini rahatlıq və asanlıq dinidir, lakin namussuzluq və özbaşınalıq dini deyil. Allahın və Onun Elçisinin (s.a.v) qoyduqları müəyyən sərhəd və qadağanlar var, bunları heç bir tərzdə aşmaq olmaz. Bunu etmək haramdır. Bu saydıqlarımız bəndlər əsaslarıydı ki, onlar (rafizilər) bu hiylələrlə insanları azdırıb, toplayaraq öz sıralarını çoxaltmağa çalışırlar.

Bu fikirlərin əsas yayıcıları ‘’rafizi’’ adlanan batil olan bir cərəyan nümayəndələridir. İslamın əsas istiqamətlərindən və bu yolda olan bütün haqq məzhəblərindən ayrılan və onlara qarşı sayğısızlıq göstərən azmış bir firqədir.

Rafizilik tarix səhnəsində İmam Zeyd bin Zeynalabidin dövründə meydana çıxıblar. İmam Zeyd Əməvi dövlətinin Kufə şəhərinə qarşı qisas məqsədi ilə qalxmışdı, çünki onun dediyi kimi: ‘’bu şəhərin əhli babası olan Hz. Hüseyni çağıraraq fitnəyə salıb ölümünə səbəb olublar’’. Həqiqətən də, Kufə əhli çox üsyankar bir tayfa idi və həmişə öz vəlilərdən daima narazı qalardılar, və keçmiş dinlərindən qalmış adətlərinə görə daima hansısa bir xilaskarın gəlib onları xilas ədəcəyi ideyalarla yaşayaraq həmişə ixtişaşlar törədiblər. Bu səbəblə yənə də narazı qalaraq öz üsyanlarında Peyğəmbərimizin (s.a.v) nəvəsini qabağa vermək istəyirlər. Bunun üçün özlərini məzlum şəkildə göstərərək İmam Hüsəynə, sanki Onu köməyə çağıraraq çoxlu qollar çəkilmiş məktublar göndərirlər. Lakin Hz. Hüseyn Kufə yaxınlıqlarına gəlib çıxtıqda onlar öz vədlərindən döndülər, amma artıq fitnə baş alıb gedirdi. Bu fitnənin nəticəsində də Hz. Hüseyn şəhid olur. Üstəlik də, tarix onu göstərir ki, Hz. Hüseynə qarşı çıxan qoşun təmamı ilə kufəlilərdən ibarət idi. Odur ki, İmam Zeyd onlardan intiqam almaq məqsədi ilə qoşun yığıb Kufəyə doğru hərəkətə keçir, Onun qoşunu döyüşə başlayacağı üzrə olduqda, onun tərəfdarlarından bəziləri İmama belə dedilər: ‘’Əbu

Bəkr və Ömər haqqındakı görüşünü bizə bildir, biz də düşmənlərinə qarşı sənə yardımçı olaq''. İmam Zeyd islamiyyəti yaxşı bilən bir kəs idi. Buna görə Hz. Əbu Bəkr və Hz. Ömər kimi ilk müsəlmanlar haqqında onlara uyğun olmayan bir şey söyləyə bilməzdi. Kritik bir vəziyyətdə olmasını heç nəzərə almayaraq belə buyurdu: ''Mən onlar haqqında xeyirdən başqa bir şey söyləyə bilmərəm. Atamın da (Əli bin Hüseyn ''Zeynalabidin) onlar haqqında xeyirdən başqa bir şey söylədiyini eşitməmişəm. Mən sadəcə Ümeyyə oğullarına qarşı ayağa qalxdım, çünki onlar babam Hüseyni (r.a) öldürdülər və ''Harrə'' günündə Mədinəni soydular, ''Beytullaha'' (Kəbəyə) daşatan qurğu ilə daş və atəş atdılar''. Onun bu cavabı sual verənlərin xoşuna gəlmədi. Böyük bir dəstə halında ən kritik anda onu tərk etdilər. İmam Zeyd də onlara: ''Rəfəztümuni''- yəni ''məni tərk etdiniz'' – dedi. Bu səbəblə də onlara ''rafizilər'' deyildi. Rafizilər Şiəlik anlayışında onların ən çox aşırılığa düşən firqələrindəndir. Hətta ''zeydilər'' və digər firqələr onları qəbul etmirlər. Rafizilərin ən batil iki görüşü – Hz. Əbu Bəkr və Hz Ömərə qarşı küfr etmək̇ləri və Allahın qədərini (xeyrin və şərin Allahdan olmasına inamı) inkar etmək̇ləridir. Bundan da əlavə, yuxarıda qeyd etdiyimiz kimi Peyğəmbərin (s.a.v) səhabələrini inkar edib onları nalayiq tərzdə tənqid edirlər, Peyğəmbərimizin (s.a.v), bütün İslam ümmətinin qəbul etdiyi hədislərini qəbul etmirlər, Peyğəmbərimizin (s.a.v) təlimini və yolunu qəbul etmirlər, Quranı tam olaraq qəbul etmirlər, əqli (məntiqi) şəriət elmindən və həqiqi hadisələrdən üstün tuturlar, Peyğəmbərin (s.a.v) yolunda olan ''əhli sünnət'' (Peyğəmbərin (s.a.v) təlimi ilə gədən) haqq məzhəbləri inkar edib onları savadsızcasına tənqid eləyirlər, ixtilaflar yayaraq fitnə-fəsadlara səbəbkar olurlar, xalqı üsyana sövq edirlər, cavanları kəbinsiz həyat tərzinə sövq edirlər, İslam yolunda böyük əvəzsiz xidmətlər göstərən istər ərəb istər türk xalqlarına qarşı nifrət hisslərini oyandırmağa çalışırlar (halbuki, Peyğəmbərimiz (s.a.v) də raşidi xəlifələrimiz də, imamlarımız da məhz Ərəb olublar, Quran da ərəblərə ərəb dilində nazil olub, İslamı da ilk qəbul edən ərəb xalqı olmuşdur; türk qardaşlarımız isə ikinci xilafəti qurub 6 əsr həm İslamı, həm müsəlmanları, biz də ora daxil olmaqla, həqiqi mənada qoruyublar) və sairə batil fikirlər.

Əbu Əli Həsən İbn Əli Nizamülmülk öz əsərində rəvayət edir:

''Sonra Müşəttəb dedi: ''Abdullah bin Abbas deyir ki, bir gün Peyğəmbər (s.a.v) Əliyə dedi: ''Əgər Rafizi adlanan dəstəyə rast gəlsən, bil ki, onlar müsəlmaçılıqdan əl çəkiblər,...''

''Əbu Ümamə rəvayət edir ki, Peyğəmbər (s.a.v) demişdir: ''Axır zamanlarda rafizi adlanan bir dəstə adam meydana çıxacaqdır,...''

''İsmail bin Səd (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (s.a.v) buyurmuşdur: ''Qədərilər mənim ümmətimin məcusiləridir (od pərəstdir, xeyir ilahı və şər ilahı olaraq iki ilahlıq anlayışını qəbul

edənlər), Xəstələnsələr, onların yanına getməyin, ölsələr cənazələrini yola salmayın. Bütün rafizilər qədəri məzhəbi olarlar’’.

‘’Peyğəmbər (s.a.v) buyurmuşdur: ‘’Hər ümmətin məcusiləri vardır. Mənim də ümmətimin məcusiləri – qədəri inkar ədənlərdir’’.

Müşəttəb dedi: ‘’Abdullah bin Abbas və Abdullah bin Ömər belə rəvayət edirlər ki, Peyğəmbər (s.a.v) demişdir: ‘’Qədərilərin və rafizilərin İslamda payları yoxdur’’.
....Müşəttəb dedi: ‘’Ümmu Sələmə rəvayət edir: ‘’Bir gün Peyğəmbər (s.a.v) mənim yanımda idi, qızı Fatimə Əli (Allah onların hər ikisindən razı olsun) ilə Onun yanına gəldilər. Bir şey soruşmaq istəyirdilər ki, Peyğəmbər (s.a.v) başını qaldırıb dedi: ‘’Ey Əli, təbrik edirəm, sən və sənin əyalın behişdə gədəcəksiniz. Lakin səndən sonra rafizi adlanan bir tayfa əmələ gələcəkdir, onlar kafirlərdir’’, və daha sonra Əlini onlara mübarizəyə çağırır. Hz. Əli soruşur: ‘’Ya Rasulullah, onların əlaməti neçə olar?’’, Peyğəmbər (s.a.v) dəid: ‘’Cümə namazına gəlməz, camaat namazına durmaz, əvvəlkilər haqqında pis danışarlar’’

Bu barədə rəvayət və ayət çoxdur, hamısını yada salsaq, özü böyük bir kitab olar.

Allah Bizi o cür batil fikirlərdən qorusun və onların fitnəsini bizdən uzaq eləsin. Allah bizim elmimizi artırsın və haqqa yönəltsin.

Düşmənin dostundan qaçsan yaxşıdır,

Dostunun dostuyla dostluq eylə sən,

İki cür adamdan arxayın olma:

Düşmənin dostundan, dost düşmənindən.

Əziz həmvətənlilərimiz, müsəlman bacı və qardaşlarımız, ana və atalarımız. Bizim dinimiz olan İslam dini-çox qədim, çox zəngin və çox hikmətli bir dindir. Həmişə də dinimiz düşmənlərin hədəfinə çevrilir. Lakin İslam dinimizin sarsılmaz bünövrəsi üzərində qurulan əsaslar və prinsiplər ətrafında birləşən Hz. Məhəmməd Ümməti daima düşmənlərinə sipər olub, çünki onun təlimi – ilahi bir qaynaq, səmavi bir nizamdır. İslam – ədalətlik dinidir, hər bir fərdin, ya da cəmiyyətin özünə məxsus haqqlarını bərpa edən və qoruyan qanunlara malik olan bir din hüquqşünaslı tarixində misli və əvəzedicisi olmayan hüquq məcmuasının ilahi nümunəsidir. Milliyyətindən, irqindən, təbəqəsindən, sərvətindən asılı olmayaraq

İslam dini bütün bəşəriyyəti birləşdirici genişliyə, qardaşlığa və səadətə gətirib çıxardan ilahi dindir.

Bu dinin müəyyən edilmiş birləşdirici olan əsas göstəriciləri var, belə ki, bəzi hüquqi məsələlərdə müxtəlif görüşlərə (məktəblərə) mənsub müsəlmanların yenə də ilahları birdir – Allah Təala; qiblələri birdir - Kəbə; Peyğəmbərləri birdir – Hz. Məhəmməd (s.a.v); kitabları (səmavi konstitusiyası) birdir – Quran; ibadətləri –namaz, oruc, həcc, zəkat, cihad, elm (mərifət) və saira. Bu cür birləşdirici amillər olduqdan sonra gəlin heç kimin uydurmalarına aldanıb qapılmayaq, dinimizdə parçalanmayaq, axı elmdə olan fikir ayrılığı heç də düşmənçilik demək deyil. Bir xalqın iki oğlu, üstəlik də bir dinin iki qardaşı olduğu halda niyə görə ayrılığa düşək, bu səbəblə də zəifləyək!? Gəlin ürəkdən də, əqidədən də bir olaq, düşmən də bizi parçalayıb, ayıraraq zəiflədə bilməsin.

Hər bir müsəlman səmimiyyətlə Allahı sevməli, Peyğəmbəri sevməli, ilk olan Raşidi xəlifələri sevməli, ‘’əhli bəyti’’ və digər əshabi-kiramı sevməlidir. Haqq din budur.

İslam dini bütün məxluqlar arasında əminamanlıq və sevgi qurmaq üçün nazil edilib. Biz də sizi birliyə, sevgiyə, qardaşlığa və hörmətə çağırırıq.

Necəki, Peyğəmbərimiz (s.a.v) buyurub: ‘’Bərəkət birlikdədir’’.

Onu bilməliyik ki, Allah Təala bir yerdə olanlara rifah verir, şeytan isə canavarın tək quzunu yediyi kimi, camaatdan ayrılanın qəlbini yeyər. Gəlin Allahın haqq olan İslam dini ətrafında birləşərək, hamımız səmimi qəlbdən Rəbbimiz olan Xaliqimizə qulluq edək, əbədi səadəti Allahdan diləyək və şeytanın da gözünü yolda qoyaq.

Allahım! Bərəkət ver bizə bu dünyada, bərəkət ver bizə axirətdə və bizi cəhənnəm odundan qoru!

Allahım yaratdıqlarının şərrindən Sənə sığınırıq. Allahım! Bizi Peyğəmbərinin yoluna və Onun yolu ilə gədənlərin yoluna yönəlt!

Amin!

VƏS-SƏLƏMU ALƏL MURSƏLİN, VƏL HƏMDU LİLLƏHİ RABBİL ALƏMİN, VƏ ALLAHUMMƏ SALLI ALƏ MUHAMMƏDİN VƏ ALƏ ALİ MUHAMMƏD

ƏS-SƏLAMU ALEYKUM VƏ RƏHMƏTULLAHİ VƏ BƏRƏKƏTUHU!

Müəllif:**Humeyra**